



# Ləyaqətli xidmət, müdriklik örnəyi

**Qarşımda bir kitab var: "Lerik polisinin tarixindən". Kitab keçən əsrin 20-ci illərindən başlayaraq ucqar dağ rayonu Lerikdə çalışan asayiş keşikçilərinin çətin və şərəfli işinə həsr olunub. Bu dəyərli topluda 1930-cu ildə Lerik rayon statusu alandan 2000-ci illərin əvvəllərinə kimi rayonda milis (polis) rəisi, müavin, bölmə rəisi, sıravi polis nəfəri işləmiş insanların fədakar əməyindən, cinayətkarlığa qarşı apardıqları mübarizədən, çətin şəraitdə həyata keçirdikləri əməliyyat tədbirlərindən ətraflı bəhs olunur.**




Kitabın müəllifi ömrünün 35 ilini Lerik rayon polis şöbəsində sıravi polis işçisindən şöbənin əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı rütbəsinə qədər ucalmış Daşdəmir Paşayevdir. O, 1925-ci il may ayının 10-da Lerikin uca dağların əhatəsində yerləşən Rəzgöv kəndində halal zəhmət adamı Mirkazım kişinin ailəsində dünyaya göz açıb. Ailənin ilk övladı olub. Bir yaşına çatmamış anasını itirib. Çox çətin, məşəqqətli uşaqlıq dövrü yaşayıb.

İbtidai təhsilini doğma kəndində, yeddilik təhsilini qonşu Çayrud məktəbində alıb. Bakıda texniki-peşə məktəbində oxuyub, neft mədənlərində işləyib.

1943-cü ildə Daşdəmir Paşayev İkinci Dünya müharibəsində səfərbərliyə alınıb. Moskva ətrafında döyüşlərdə igidlik, şücaət göstərib. Cəbhədən-cəbhəyə ağır, qanlı-qadalı döyüş yolu keçib. Belarus və Litva ərazisində döyüşlərdə fəal iştirak edib. Belarusun Vitebsk şəhəri uğrunda gedən döyüşlərdə yaralanıb. Hərbi hospitalda müalicə olunduqdan sonra 3-cü Belarus ordusunda xidmətini davam etdirib. 1944-cü ilin payızında gedən döyüşlərdə ağır yaralanıb və uzun müddət müalicə olunub.

1946-cı ildə ordudan tərxis olunaraq Vətənə qayıdıb, kolxozda briqadir, mühasib işləyib. İşgüzar, halallığı sevən, ədalətin tərəfində duran bacarıqlı kadr kimi tanınıb. 1949-cu ildə komsomol təşkilatının təqdimatı ilə rayon milis şöbəsində pasport qeydiyyatçısı vəzifəsində işə düzəlib.

O, 1951-ci ildə Bakı Milis Məktəbinə daxil olub. Təhsilini bitirdikdən sonra Lerik rayon milis şöbəsində pasport masa rəisi, sonrakı illərdə isə baş əməliyyat müvəkkili, əməliyyat işləri üzrə rəis müavini vəzifələrində çalışıb. O illərdə rayonun hüquq-mühafizə orqanlarında yerli kadrlar çatışmırdı. Təcrübəli, peşəkar polis zabiti Daşdəmir Paşayev Lerik polisində xidmət etdiyi müddətdə cinayət axtarışı üzrə ilk yerli baş inspektor, ilk rəis müavini, ilk polis əlaçısı, ilk polis polkovnik-leytenantı olub. Polis orqanlarında uzun illər ləyaqətlə, yüksək məsuliyyətlə xidmət edib. Rayonun ərazisində törədilmiş ağır cinayətləri, təsərrüfatlarda oğurluq, dövlət əmlakının mənimsənilməsi, saxtakarlıq kimi cinayət əməllərini isti izlərlə açaraq peşə borcunu şərəflə yerinə yetirib. Yerli əhalinin köməyilə təhlükəli cinayətkarları, cinayət əməli törədənləri müəyyənləşdirib onların qanun qarşısında cavab verməlinə nail olub. Xidməti fəaliyyətində həmişə yüksək göstəricilərlə seçilib.

Daşdəmir Paşayev təcrübəli əməliyyat müvəkkil kimi dəfələrlə Lənkəran, Astara, Yardımlı, Neftçala və digər rayonlara ezam edilib, baş vermiş ağır cinayətlərin açılmasında səy və bacarığını əsirgəməyib. Nazirlik tərəfindən ona vaxtından əvvəl mayor rütbəsi verilib. On il şöbə rəisinin əməliyyat işləri üzrə müavini vəzifəsində yüksək işgüzarlıq və peşəkarlıq nümayiş etdirib. Kollektivdə ağsaqqal kimi böyük hörmət qazanıb. Daxili İşlər Nazirliyi və rayon rəhbərliyi tərəfindən dəfələrlə təşəkkürnamə, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

1984-cü ildə təqaüdə çıxandan sonra da Daşdəmir Paşayev polis şöbəsinin, eləcə də rayonun ictimai həyatında fəal iştirak edib. Neçə-neçə gənc polis işçisinin təcrübə qazanmasında, seçdikləri çətin və şərəfli peşəyə ürəkdən bağlanmasında onun böyük zəhməti olub.

67 illik ailə həyatında ömür-gün yoldaşı Tahirə Hənifə qızı ilə səkkiz qız, bir oğul böyüdüblər. Övladları ev-eşik sahibidir. Nəvə və nəticələrinin sayı 90-ı ötüb. Yeganə oğlu Rahim atasının yolunu seçib, uzun illərdir ki, Lənkəran şəhər-rayon polis şöbəsində çalışır.

Tale ona 95 il ömür payı ayırdı. Yaşasaydı, 100 illik yubileyi qeyd ediləcəkdi. Qələmə aldığı "Lerik polisinin tarixindən", "Qisas və özünəqəsd", "Ulu kəndim Rəzgöv", "Geriyə boylananda", "Mənim həyatım" kitabları, bir də yaratdığı peşəkarlıq, müdriklik məktəbi yadigar qalıb. Polis orqanlarında çalışanlar Daşdəmir Paşayev məktəbindən öyrənir, onun parlaq xatirəsini daim əziz tuturlar.

**Ə.AĞAXANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyul (№ 133).- S.15.